# Azərbaycan Prezidenti İlham Əliyev 6 saylı seçki məntəqəsində səs vermişdir







2013-cü il oktyabrın 9-u Azərbaycanın tarixində növbəti prezident seçkiləri günü olmuşdur.

Seçki prosesinin başladığı ilk dəqiqələrdən Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsində xüsusi canlanma müşahidə olunurdu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da səhər saat 10-da xanımı Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə seçki məntəqəsinə gəldi.

Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı.

Bu anı respublikamızın və xarici ölkələrin mətbuat orqanlarının, televiziya kanallarının nümayəndələri izlədilər.

Mehriban xanım Əliyeva və ailə üzvləri də səs verdilər.

Prezident İlham Əliyev beynəlxalq müşahidəçilərlə görüşdü.

***Seçicilər xalqımızın xoşbəxt gələcəyinə, dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə, iqtisadi dirçəlişə, dinamik inkişafa, sabitliyə və əmin-amanlığa səs verdilər.***

# Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov prezident seçkilərinin ilkin nəticələrini açıqlamışdır

Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov oktyabrın 9-da keçirilmiş prezident seçkilərinin ilkin nəticələrini açıqlamışdır.

MSK sədri oktyabrın 10-da seçkilərin nəticələri ilə bağlı keçirdiyi mətbuat konfransında demişdir: "Səsvermə oktyabrın 9-da səhər saat 8:00-da başlanmış və saat 19:00-da başa çatmışdır. Artıq 125 seçki dairəsindəki 5492 məntəqədən 5466-nın protokolları MSK-ya daxil olmuşdur. Məcburi köçkünlərin məskunlaşdığı rayonları əhatə edən 26 məntəqədən isə protokollar hələ də MSK-ya daxil olmamışdır. Daxil olan protokolların nəticələrinə görə, yüksək seçici fəallığı ilə keçən seçkilərdə səsvermə hüququ olan 5 milyon 164 min 345 seçicinin 3 milyon 723 min 544-ü və yaxud 72,1 faizi iştirak etmişdir. Mütəşəkkilliklə keçən prosesi çox nüfuzlu qurumların müşahidəçiləri izləmişlər. Səsvermə günü MSK-ya heç bir şikayət daxil olmamışdır. Prezident seçkiləri yüksək səviyyədə keçirilmişdir".

Səsvermənin ilkin nəticələrini açıqlayan MSK sədri demişdir ki, ilkin nəticələrə görə, prezidentliyə namizəd, hazırkı dövlət başçısı Əliyev İlham Heydər oğlu ölkə üzrə seçicilərin 84,59 faizinin səsini qazanmışdır.

Səsvermənin ilkin nəticələri aşağıdakı kimidir:

Əliyev İlham Heydər oğlu - lehinə 3 milyon 118 min 287 səs verilmiş və 84,59 faizlə birinci yerdədir.

Həsənli Cəmil Poladxan oğlu - lehinə 204 min 209 səs verilmiş və 5,54 faizlə ikinci yerdədir.

Ağa-zadə İqbal Fehruz oğlu - lehinə 87 min 842 səs verilmiş və 2,38 faizlə üçüncü yerdədir.

**(Ardı 4-cü səhifədə).**